Azərbaycan Respublikasının
Maliyyə Nazirliyi

# Azərbaycan Respublikasının 2022-ci ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər

BAKI - 2022

# Giriş

Qlobal pandemiya şəraitində 2020-ci ildə ölkə iqtisadiyyatında müşahidə olunan iqtisadi geriləmə ötən ildən başlayaraq iqtisadiyyatın sürətli bərpa prosesi ilə əvəzlənmişdir. Bu müsbət artım dinamikası 2022-ci ildə də davam etməkdədir. Makroiqtisadi göstəricilərdə müşahidə edilən pozitiv meyillər dövlət və icmal büdcələrinin icrasında da özünü göstərir.

Bununla belə, qlobal iqtisadi və geosiyasi proseslərin fonunda dünya bazarlarında birja əmtəələrinin, xüsusilə də enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin artması, həmçinin daşınma və logistika xərclərinin yüksəlməsi inflyasiyanın artmasına səbəb olmuşdur. Dünya iqtisadiyyatında baş verən inflyasiya prosesləri Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmiş və ölkədə orta illik inflyasiyanın səviyyəsi yüksəlmişdir.

Cari ilin ötən dövrünün makroiqtisadi nəticələri, fiskal icra göstəriciləri və əmtəə bazarlarının dinamikası nəzərə alınaraq 2022-ci il üzrə makroiqtisadi proqnozlar yenilənmişdir. İqtisadi artım proqnozları yenilənən zaman qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı yüksək qiymət gözləntiləri nəzərə alınmışdır. Belə ki, 2022-ci ilin birinci yarısında neftin bir barelinin faktiki qiyməti 110 ABŞ dolları təşkil etmiş, ikinci yarısı üzrə isə daha mühafizəkar yanaşma əsasında 60 ABŞ dolları ehtimal edilmiş, ümumilikdə 2022-ci il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən xam neftin bir barrelinin orta illik ixrac qiyməti 85 ABŞ dolları səviyyəsində proqnozlaşdırılmışdır.

2022-ci ilin ötən dövrünün faktiki icra göstəriciləri, yenilənmiş makroiqtisadi proqnozlar, enerji daşıyıcılarının qiymətlərində qeyd edilən artımlar, həmçinin dövlətin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, əhalinin sosial müdafiəsinin və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir sıra vacib tədbirlərin maliyyələşdirilməsi zərurəti 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirmiş və büdcəyə dəyişikliklər edilərək 2022-ci il 29 iyun tarixli 562-VIQD nömrəli Qanunla təsdiqlənmişdir.

2022-ci ilin yarımillik iqtisadi dinamikasında ilin ilk beş ayına nəzərən kəskin fərqlər müşahidə edilmədiyindən cari ilin iyun ayında büdcəyə yenidən baxılması zamanı yenilənmiş makroiqtisadi proqnozlar və büdcə parametrləri ilin sonuna olan gözləntilər kimi qəbul edilmişdir.

Hazırki sənəd 2022-ci ilin ilk altı ayında makoiqtisadi vəziyyətə və dövlət və icmal büdcələrinin icrasına dair arayışı, həmçinin makroiqtisadi və fiskal göstəricilər üzrə ilin sonuna gözləntiləri ehtiva edir.

# 1. 2022-ci ilin birinci yarısı üzrə makroiqtisadi vəziyyət

Ölkə iqtisadiyyatında 2021-ci ildən qeydə alınan sürətli bərpa prosesinin davamı olaraq cari ilin ilk altı ayında da iqtisadi göstəricilərdə müsbət tendensiya müşahidə edilmişdir. Belə ki, cari ilin ilk yarımilliyində ölkədə 63,4 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 31,9 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 6,2 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə ÜDM 9,6 faiz artmışdır.

Ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar-iyun ayları ərzində ölkə iqtisadiyyatının demək olar ki, bütün sahələrində real artım müşahidə olunmuşdur. Belə ki, 2022-ci ilin birinci yarısında ÜDM-in strukturunda ən böyük xüsusi çəkiyə (53,3 faiz) malik sənayedə 2,2 faiz real artım olmaqla 33,8 milyard manatlıq, ticarət və nəqliyyat vasitələrinin təmiri sektorunda (xüsusi çəkisi 7,7 faiz) 3,7 faiz real artım olmaqla 4,8 milyard manatlıq, nəqliyyat və anbar təsərrüfatında (xüsusi çəkisi 5,8 faiz) 27,0 faiz real artım olmaqla 3,7 milyard manatlıq əlavə dəyər istehsal edilmişdir.

**Qrafik 1. 2022-ci ilin birinci yarısında ÜDM-in strukturu (milyard manatla) və real artım tempi (faizlə)**




**Qrafik 2. 2022-ci ilin birinci yarısında ÜDM-in sahələr üzrə bölgüsü, faizlə %**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qlobal iqtisadiyyatdakı inflyasiya prosesləri dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmiş və bütövlükdə 6 ay ərzində orta illik inflyasiyanın səviyyəsi 12,9 faiz olmuşdur. İnflyasiya idxal olunan əmtəələrdən, xüsusən ərzaq məhsullarından qaynaqlanmışdır. Ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksində ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,4 faiz, xidmətlər üzrə 10,3 faiz, qeyri-ərzaq məhsulları üzrə isə 6,7 faiz artım qeydə alınmışdır (Qrafik 3).

Qrafik 3. İlin birinci yarısında orta illik inflyasiyanın dinamikası (faizlə)




*Mənbə: Dövlət Statistika Komitəsi*

Qeyd olunan dövr ərzində inflyasiya təzyiqlərinin cilovlanması, onun makroiqtisadi sabitliyə, iqtisadi aktivliyə və əhalinin sosial durumuna mənfi təsirlərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülmüşdür. Belə ki, idxal olunan məhsulların bahalaşaraq qiymət artımını sürətləndirdiyi bir şəraitdə ölkədə makroiqtisadi sabitliyi təmin etmək və əhalinin real gəlirləri və alıcılıq qabiliyyətini qorumaq məqsədilə “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 2022-ci il tarixli Sərəncamı qəbul edilmişdir. Mərkəzi Bank tərəfindən yanvar və mart aylarında qəbul olunmuş qərarlar əsasında uçot dərəcəsi 7,25 faizdən 7,75 faizə çatdırılmış, aprel, iyun və iyul aylarında isə sabit saxlanılmışdır.

Cari ilin ilk altı ayı ərzində ötən ilin eyni dövrünə nəzərən pərakəndə ticarət dövriyyəsi 2,9 faiz, qeyri-neft-qaz sektoruna əsas kapitala investisiyaların artımı isə 18,5 faiz təşkil etmişdir.

2022-ci ilin iyun ayında bankların kredit portfelinin qalığı 1,2 faiz və ya 221,7 milyon manat artaraq 18320 milyon manat olmuşdur. Bankların cəmi kredit portfelində biznes kreditlərinin payı 57,2 faiz və ya 10 481,7 milyon manat təşkil etmişdir. Ümumilikdə, cari ilin 6 ayında kredit portfelinin artımının 45,0 faizi biznes, 40,0 faizi istehlak, 15,0 faizi ipoteka kreditəri hesabına olmuşdur.

Azərbaycanda 2022-ci ilin birinci rübündə tədiyyə balansının profisiti ÜDM-in 9,0 faizinə (1,6 milyard ABŞ dolları) çatmışdır və bu artım tendensiyasının neftin nisbətən yüksək qiymətləri ilə davam edəcəyi gözlənilir. 2022-ci ilin birinci rübündə cari əməliyyatlar balansının profisiti ÜDM-in 22,4 faizini (4,0 milyard ABŞ dolları) təşkil etmişdir.

Cari ilin yanvar-iyun ayları ərzində xarici ticarət üzrə əməliyyatların həcmi 24,8 milyard ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 74,9 faiz çox) təşkil etmişdir ki, bunun da 18,5 milyard ABŞ dolları ixrac əməliyyatlarının, 6,4 milyard ABŞ dolları isə idxal əməliyyatlarının payına düşmüşdür. Nəticədə xarici ticarət hesabında 12,1 milyard ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. Eyni zamanda, xarici ticarət dövriyyəsində qeyri-neft məhsullarının ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 25,4 faiz və ya 295,3 milyon ABŞ dolları çox olmaqla 1,5 milyard ABŞ dollarına bərabər olmuşdur.

2022-ci ilin birinci yarısında ölkənin valyuta ehtiyatları 1,8 faiz artaraq 54,2 milyard ABŞ dollarına çatmışdır.

## 2. Dövlət və icmal büdcələrin 2022-ci ilin birinci yarısı üzrə icra göstəriciləri

Ölkə iqtisadiyyatında qeyd olunan müsbət meyillər, habelə qlobal əmtəə bazarlarında neft və qazın qiymətinin yuxarı olması dövlət büdcəsinin icra göstəricilərinə də müsbət təsir etmişdir. Belə ki, 2022-ci ilin birinci yarımilliyi üzrə operativ icra məlumatına əsasən dövlət büdcəsinin gəlirləri 13231,8 milyon manat proqnoza qarşı 14205,5 milyon manat və ya 107,4 faiz təşkil edilmişdir ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 2450,5 milyon manat və ya 20,8 faiz çoxdur. 2022-ci ilin ilk altı ayı ərzində dövlət büdcəsinin gəlirlərinin 7456,7 milyon manatı qeyri-neft sektorunun payına düşmüşdür ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 1565,1 milyon manat və ya 26,6 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi proqnoz göstəricisinə (44,4 faiz) nisbətən 8,1 faiz-bənd artmışdır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 6482,1 milyon manat vəsait daxil olmuşdur ki, bu da proqnoza nisbətən 2064,7 milyon manat və ya 46,7 faiz çoxdur. Həmin vəsaitin 67,6 faizi və yaxud 4381,3 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşmüşdür. Buna əlavə olaraq, neft sektoru üzrə daxilolmaların Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalarda payı 32,4 faiz və ya 2100,8 milyon manat olmuşdur.

**Qrafik 4. 2021 və 2022-ci illərin birinci yarısında dövlət büdcəsində qeyri-neft gəlirlərinin və neft gəlirlərinin çəkisi**




Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 2539,7 milyon manat vəsait təmin edilmişdir ki, bu da proqnoza nisbətən 472,3 milyon manat və ya 22,8 faiz çoxdur.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozla nəzərdə tutulan 6360,0 milyon manat məbləğində transfertə qarşı Fondun ümumi gəlirlərinin 32,7 faizi həcmində və ya 4648,0 milyon manat məbləğində transfert daxil olmuşdur. Vergi və gömrük orqanlarının xətti ilə daxilolmaların müsbət dinamikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertdən 1712,0 milyon manat və ya 26,9 faiz az istifadə olunmasına imkan vermişdir.

Dövlət büdcəsindən maliyyələşdirilən idarə və təşkilatların ödənişli xidmətlərindən 371,5 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 95,1 milyon manat və ya 34,4 faiz çoxdur.

2022-ci ilin birinci yarımilliyində sair daxilolmalar üzrə dövlət büdcəsinə 151,9 milyon manat vəsait daxil olmuşdur ki, bu da proqnoza qarşı 93,4 milyon manat və ya 2.6 dəfə çoxdur.

Həmçinin, 2022-ci ilin ilk altı ayında dövlət büdcəsinin xərcləri 12855,1 milyon manat proqnoza qarşı 12936,6 milyon manat və ya 100,6 faiz icra edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1346,1 milyon manat və ya 11,6 faiz çoxdur.

**Qrafik 5. Dövlət büdcəsinin xərclərinin strukturu (faizlə) və yarımillik icrasının ötən illə müqayisəsi (milyon manatla)**




2022-ci ilin ilk altı ayında dövlət büdcəsi xərclərinin 8714,1 milyon manatı cari xərclərə, 3434,8 milyon manatı əsaslı xərclərə, 787,7 milyon manatı dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilmişdir.

**Qrafik 6. 2022-ci ilin birinci yarımilliyində dövlət büdcəsi xərclərinin funksional təsnifat üzrə icra göstəriciləri (milyon manatla)**



2022-ci ilin ilk altı ayında 2021-ci ilin eyni dövrünə nisbətən iqtisadi fəaliyyət xərclərinə 65,2 faiz və ya 960,6 milyon manat, mənzil və kommunal təsərrüfatı xərclərinə 36,0 faiz və ya 26,3 milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərə 18,6 faiz və ya 160,1 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 13,1 faiz və ya 21,2 milyon manat, səhiyyə xərclərinə 2,5 faiz və ya 20,4 milyon manat çox vəsait yönəldilmişdir.

Hesabat dövründə Ortamüddətli xərclər çərçivəsinin (OMXÇ) və nəticəəsaslı büdcə mexanizminin tətbiq olunduğu büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrində icra göstəriciləri aşağıdakı kimi olmuşdur:

Dövlət büdcəsindən təhsil bölməsi üzrə 112 tədbiri əhatə edən 17 proqramın həyata keçirilməsi üçün proqnozla müqayisədə 245,8 milyon manat və ya 14,7 faiz daha çox olmaqla 1916,9 milyon manat məbləğində vəsait xərclənmişdir.

Kənd təsərrüfatı bölməsi üzrə 37 tədbiri əhatə edən 5 proqramın həyata keçirilməsi üçün proqnoza nəzərən 54,3 milyon manat və ya 10,3 faiz az olmaqla 474,8 milyon manat istifadə olunmuşdur.

Ətraf mühitin mühafizəsi bölməsi üzrə 40 tədbiri əhatə edən 4 proqramın həyata keçirilməsi üçün proqnoza nəzərən 22,6 milyon manat və ya 18,4% az icra olunaraq 100,5 milyon manat məbləğində vəsait istifadə olunmuşdur.

Cari ilin ilk altı ayında sosialyönümlü xərclər (iqtisadi təsnifata uyğun olaraq əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) dövlət büdcəsinin faktiki xərclərinin 44,8 faizini (2021-ci ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz-bənd çox) təşkil etməklə 5799,8 milyon manat məbləğində icra olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 688,0 milyon manat və ya 13,5 faiz artıqdır.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərcləri üzrə icraçılar tərəfindən verilmiş sifarişlər əsasında 1172,4 milyon manat məbləğində (2021-ci ilin eyni dövrü ilə müqayisədə 3,2 dəfə çox) maliyyələşdirmə aparılmışdır ki, bu da cari ildə həmin məqsəd üçün nəzərdə tutulmuş xərclərin 53,3 faizinə bərabərdir.

Hesabat dövründə dövlət büdcəsində 1268,9 milyon manat profisit yaranmışdır ki, bu da proqnozlaşdırılan göstəricidən 892,2 milyon manat və ya 2,4 dəfə çoxdur.

2022-ci ilin birinci yarımilliyində icmal büdcənin gəlirləri 18149,7 milyon manat olmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2820,8 milyon manat və ya 18,4 faiz çoxdur. İcmal büdcə xərcləri isə 14343,0 milyon manat olmuşdur ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1590,6 milyon manat və ya 12,5 faiz çoxdur. 2022-ci ilin ilk 6 ayında icmal büdcədə 3806,7 milyon manat büdcə artlıqlığı (profisit) yaranmışdır.

## 3. 2022-ci il üzrə yenilənmiş makroiqtisadi proqnozlar

Qlobal səviyyədə artan inflyasiyanın qarşısının alınması üçün tətbiq olunan məhdudlaşdırıcı monetar siyasət iqtisadi zəifləmə meyillərini şərtləndirmiş, bununla bərabər inflyasiya təzyiqinin və qlobal siyasi-hərbi gərginliyin davam etməsi gələcək iqtisadi perspektivlər üzrə qeyri-müəyyənliyi artırmışdır. Bu xüsusda, 2022-ci il üzrə qlobal iqtisadi artım proqnozları öncəki gözləntilərə nəzərən daha aşağı səviyyədə götürülmüşdür. Belə ki, Dünya Bankının 2022-ci ilin iyun ayında dərc olunmuş “Qlobal iqtisadi perspektivlər” icmalında cari ilin yanvar ayında təqdim olunmuş proqnozla müqayisədə qlobal iqtisadi artım 1,2 faiz bənd azaldılaraq 2,9 faiz, inkişaf etməkdə olan ölkələr üzrə 1,2 faiz bənd azalaraq 3,4 faiz, Azərbaycan üzrə 0,4 faiz bənd azaldılaraq 2,7 faiz səviyyəsində proqnozlaşdırılmışdır.

Cari ilin birinci yarısında baş verən proseslər enerji daşıyıcılarının qiymətlərinin əhəmiyyətli artımı ilə nəticələnmişdir. Qeyd olunan tendensiya xammal ixrac edən ölkələr üzrə bir sıra makrofiskal göstəriciləri yaxşılaşdırsa da, resurs qiymətlərinin volatilliyi, ümumi və davamlı qiymət artımı, kapital bazarlarının vəziyyəti bu ölkələr qrupu üçün də makroiqtisadi sabitliyə təzyiq formalaşdırır. Beynəlxalq təşkilatların proqnozlarına əsasən, ilin sonunadək neftə olan tələbin davamlı olaraq yüksələcəyi və 2022-ci ildə Brent markalı neftin bir barrelinin orta illik qiymətinin 100-107 ABŞ dolları intervalında olacağı, Avropada təbii qazın min kubmetrinin isə 1200 ABŞ dollarına qədər yüksələcəyi gözlənilir.

**Qrafik 7. Neftin bir barrelinin illik orta qiymətinə dair faktiki və proqnoz göstəriciləri, ABŞ dolları ilə**




*Mənbə: World Bank Group. 2022. Commodity Markets Outlook, April 2022 (Brent); U.S. Energy İnformation Administration. Short-term Energy Outlook, İyun 2022 (Brent) ; International Monetary Fund World Economic Outlook, April 2022 (Orta çəkili qiymət – Brent, Texas, Fateh)*

Eyni zamanda, Rusiya-Ukrayna münasibətlərində gərginliyin müharibə ilə nəticələnməsi, inflyasiyanın ilkin gözləntilərdən daha yüksək olması, təklif zəncirində qırılmalar, ərzaq təhlükəsizliyinə dair risklərin artması reallıqları ölkə üzrə makroiqtisadi göstəricilərin, dövlət və icmal büdcə parametrlərinin yenilənməsinə zəmin yaratmışdır.

2022-ci ilin dövlət büdcəsinin layihəsi hazırlanan zaman İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara əsasən, ÜDM 86,6 milyard manat, qeyri-neft ÜDM 60,4 milyard manat, real artım tempi isə müvafiq olaraq 3,9 və 4,9 faiz səviyyəsində götürülmüşdür. Lakin, 2022-ci ilin ötən dövrünün makro-iqtisadi nəticələri ilə yanaşı, fiskal icra göstəriciləri və əmtəə bazarlarının dinamikası cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirmişdir.

Qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı yüksək qiymət gözləntiləri nəzərə alınaraq, iqtisadi artım proqnozları yenilənən zaman xam neftin bir barrelinin dövlət büdcəsi üzrə ilkin nəzərdə tutulmuş orta illik ixrac qiymətindən (50 ABŞ dolları) artırılaraq 85 ABŞ dolları səviyyəsində götürülmüşdür.

İl ərzində yuxarı neft qiymətlərinin neft ÜDM-in nominal artımının əsas hərəkətverici qüvvəsini təşkil edəcəyi, lakin bu sektorda real artımın kiçik olacağı, həmçinin qeyri-neft ÜDM-in müşahidə edilən yüksək real artım tempinin ilin növbəti aylarında da davam edəcəyi gözlənilir. Dövlət büdcəsinə yenidən baxılması ilə artırılmış büdcə xərclərinin əhəmiyyətli hissəsinin investisiya yönümlü xərclərin təşkil etdiyini və bu xərclərin iqtisadi artıma təsirini nəzərə alaraq,

2022-ci ilin dövlət büdcəsi zərfində qeyd olunan qeyri-neft sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,9 faizdən 5,5 faizə qaldırılmışdır. ÜDM-nin real artımı 3,4 faiz olmaqla nominal ifadədə 115,4 milyard manata, habelə qeyri-neft sektoru üzrə ÜDM-in 65,7 milyard manata qədər artacağı proqnozlaşdırılır. Ümumilikdə 2022-ci ilin dövlət büdcəsi zərfində nəzərdə tutulan proqnozla müqayisədə ÜDM üzrə 28,8 milyard manat əlavə nominal artım proqnozlaşdırılmışdır ki, bunun da əsas hissəsi – 23,5 milyard manatı neft sektorunun, yerdə qalan 5,3 milyard manatı isə qeyri-neft sektorunun hesabına formalaşacaqdır.

Eyni zamanda, büdcə layihəsi hazırlanan zaman təqdim olunmuş 4,0 faizlik orta illik inflyasiya proqnozu faktiki göstəricilər, gözlənilən meyillər, o cümlədən büdcəyə yenidən baxılması ilə yaranacaq əlavə investisiya xərclərinin təsiri nəzərə alınmaqla artırılmışdır. Müvafiq göstəricinin ilin sonuna 12,5 faiz təşkil edəcəyi gözlənilir.

**Qrafik 8. ÜDM (milyard manatla) və orta illik inflyasiya (faizlə) üzrə ilkin proqnozlar və yenilənmiş proqnozlar**




## 4. Dövlət və icmal büdcələrin 2022-ci ilin sonuna gözlənilən icra göstəriciləri

Qeyd olunduğu kimi, 2022-ci ilin 5 ayı üzrə mövcud makroiqtisadi vəziyyət və büdcənin gəlirləri üzrə əhəmiyyətli artımın olması, həmçinin yenilənmiş makroiqtisadi, o cümlədən ÜDM, qeyri-neft ÜDM və neft ÜDM proqnozları və enerji daşıyıcılarının qiymətlərində qeyd edilən artımlar nəzərə alınaraq büdcə qaydası ilə müəyyən edilmiş yuxarı hədlərə riayət etmək şərtilə 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılmasına qərar verilmiş və büdcəyə müvafiq dəyişikliklər edilərək Milli Məclis tərəfindən 2022-ci il 29 iyun tarixli 562-VIQD nömrəli Qanunla təsdiqlənmişdir. Dəyişiklik edilmiş dövlət büdcəsində dövlətin müdafiə və təhlükəsizliyinin daha da gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, əhalinin sosial müdafiəsinin və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində zəruri tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsi qarşısında yaranmış 3,0 milyard manata yaxın maliyyə tələbatının dövlət büdcəsinin əlavə gəlirləri, xərc maddələri arasında yerdəyişmələr, məqsədli büdcə fondlarının qalığı və daxili borclanma hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

2022-ci ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 29197,8 milyon manat təşkil edəcəyi gözlənilir ki, bu da ilkin təsdiq edilmiş proqnoz göstəricisinə nəzərən 8,9 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 53,2 faizi və ya 15537,5 milyon manatı neft sektorunun, 46,8 faizi və ya 13660,3 milyon manatı isə qeyri-neft sektorunun payına düşəcəkdir. 2022-ci ilin ilkin proqnoz göstəriciləri ilə müqayisədə neft sektoru üzrə gəlirlərin 847,5 milyon manat və ya 5,8 faiz, qeyri-neft sektoru üzrə isə 1534,3 milyon manat və ya 12,6 faiz artması gözlənilir.

Büdcənin əsas parametrlərinin hesablamalarında neftin və təbii qazın qiymətinin mövcud iqtisadi vəziyyətə uyğun olaraq artması ilə əlaqədar Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin həcmində əhəmiyyətli qənaət edilməsi (1192,5 milyon manat) fonunda dövlət büdcəsinin neft sektoru üzrə gəlirlərinin proqnozunda artım nəzərdə tutulmuşdur. Eyni zamanda, neft-qaz sektorundakı müsbət dinamika ilə yanaşı ölkə iqtisadiyyatının canlanması, makroiqtisadi göstəricilərdə müşahidə edilən müsbət meyillər, habelə xərclər üzrə edilən dəyişikliklərin vergitutma bazasını genişləndirməsi də öz növbəsində dövlət büdcəsinin gəlirlərinin artımını şərtləndirmişdir.

Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft gəlirlərinin xüsusi çəkisi ilkin proqnoz göstəricisinə nisbətən 1,6 faiz-bənd artaraq 46,8 faiz təşkil edəcəkdir.

2022-ci ildə dövlət büdcəsi gəlirlərinin 11740,0 milyon manatı və ya 40,2 faizi (ilkin təsdiq edilmiş göstəriciyə nəzərən 33,1 faiz çox) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, 4605,0 milyon manatı və ya 15,8 faizi (ilkin təsdiq edilmiş göstəricisinə nəzərən 8,1 faiz çox) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların payına düşəcəyi proqnozlaşdırılır. Buna əlavə olaraq, dövlət büdcəsi gəlirlərinin 11517,5 milyon manatı və ya 39,4 faizi (ilkin proqnoz göstəricisinə nəzərən 9,4 faiz az) Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 834,0 milyon manat və ya 2,9 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə daxilolmaların, 318,0 milyon manat və ya 1,1 faizi sair gəlirlərin, 0,6 faiz və ya 183,3 milyon manatı isə büdcə fondlarının payına düşəcəyi proqnozlaşdırılır.

**Qrafik 9. Dövlət büdcəsinin gəlirlərinin ilkin və yenilənmiş proqnozları (milyon manatla)**



Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 4020,0 milyon manatı və ya 34,2 faizi neft sektorunun, 7720,0 milyon manatı və ya 65,8 faizi isə qeyri neft sektorunun payına düşəcəkdir.

Neft sektoru üzrə vergi daxilolmalarının gözlənilən artımı əsasən, xam neftin və təbii qazın faktiki orta ixrac qiymətlərinin dövlət büdcəsinin gəlirlərinin proqnozu üçün əsas götürülən orta illik ixrac qiymətlərini kifayət qədər üstələməsi ilə neft-qaz sahəsində hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisinin artması ilə əlaqədardır.

Qeyri-neft sektoru üzrə gözlənilən artımın əsas səbəbləri ötən dövr üzrə faktiki daxolmaların proqnoz göstəricilərini əhəmiyyətli dərəcədə üstələməsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 2022-ci il üçün (habelə növbəti 3 il üçün) makroiqtisadi, xüsusən qeyri-neft ÜDM-in real artımı ilə bağlı proqnozların yenilənməsidir.

Təqdim edilmiş proqnozlar üzrə, həmçinin ixrac və inflyasiya göstəricilərinin artımı Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların artacağını proqnozlaşdırmağa əsas verir.

Eyni zamanda, cari ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə yönəldiləcək transfertin büdcədə nəzərdə tutulmuş ilkin proqnoz göstəricisi ilə müqayisədə 1192,5 milyon manat az olacağı proqnozlaşdırılır. Transfertin qeyd olunan həcmdə olan hissəsinin digər mənbələr üzrə proqnozlaşdırılan əlavə neft gəlirləri hesabına əvəzlənməsi nəzərdə tutulur. Bu da öz növbəsində valyuta ehtiyatlarının dayanıqlığının qorunması və makroiqtisadi risklərin mitiqasiyasına xidmət edəcəkdir.

2022-ci ildə dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların büdcədənkənar gəlirləri üzrə ilkin proqnoz göstəricilərinə nəzərən 74,0 milyon manat, sair daxilolmalar üzrə isə 52,0 milyon manat əlavə vəsait proqnozlaşdırılır. Sair daxilolmaların artımı Dövlət Gömrük Komitəsinin cari il üçün büdcədənkənar gəlirləri üzrə vəsaitlərin həmin məbləğ qədər azaldılaraq sair daxilolmalara aid edilməsi ilə bağlıdır.

2022-ci ilin yanvar ayının 1-nə Məqsədli Büdcə Fondlarının vəsaitlərinin qalığı hesabına 183,3 milyon manat vəsait, o cümlədən "Avtomobil yolları" Məqsədli Büdcə Fondu üzrə 181,0 milyon manat və "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu" üzrə isə 2,3 milyon manat vəsaitin həmin fondların gəlirlərinə əlavə ediləcəkdir. Bununla yanaşı "Avtomobil yolları" Məqsədli Büdcə fondunun carı ildə gözlənilən 169,0 milyon manat əlavə daxilolmaları da nəzərə alınmaqla fondun gəlirləri 350,0 milyon manat (2,2 dəfə) artırılaraq 650,0 milyon manat, "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu"nun gəlirləri 2,3 milyon manat (65,7 faiz) artırılaraq 5,8 milyon manat təşkil edəcəkdir.

2022-ci il dövlət büdcəsi xərclərinin 32303,8 milyon manat səviyyəsində olacağı gözlənilir ki, bu da ilkin proqnoz göstəriciyə nisbətən 8,1 faiz çoxdur. Xərclərin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 62,7 faizi həcmində və ya 20246,5 milyon manat (ilkin proqnoz göstəricisinə nisbətən 1,0 faiz çox), əsaslı xərclərə ümumi xərclərin 31,8 faizi həcmində və ya 10265,3 milyon manat (ilkin proqnoz göstəricisinə nisbətən 27,7 faiz çox), dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 5,5 faizi həcmində və ya 1792,0 milyon manat (ilkin proqnoz göstəricisi səviyyəsində) vəsait yönəldilməsi nəzərdə tutulur. Eyni zamanda, 2022-ci il ərzində 632,7 milyon manat məbləğində vəsaitin dövlət borcu üzrə faiz ödənişlərinin təmin olunmasına yönəldilməsi nəzərdə tutulur.

**Qrafik 10. Dövlət büdcəsinin xərclərinin ilkin və yenilənmiş proqnozlaşdırılan parametrləri (milyon manatla)**




Yenidən baxılmış dövlət büdcəsinin tərkibində əsaslı xərclərin xüsusi çəkisi 4,9 faiz-bənd artırılmış, cari xərclərin xüsusi çəkisi 4,4 faiz-bənd, dövlət borcuna xidmətlə bağlı xərclərin xüsusi çəkisi isə 0,5 faiz-bənd azaldılmışdır.

Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər diqqətdə saxlanılmaqla büdcənin artırılan xərclərinin böyük hissəsi Qarabağda, Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin aparılmasına və bu yerlərə Böyük Qayıdışın reallaşmasına yönəldilmişdir.

Belə ki, büdcə qaydası üzrə müəyyən edilmiş hədlər və inflyasiya amili nəzərə alınmaqla yaranmış zəruri ehtiyacların qarşılanmasına, o cümlədən dövlətin **müdafiə və təhlükəsizliyinin** daha da artırılmasına (588,4 milyon manat), **işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpasının sürətləndirilməsinə** və **ölkənin digər ərazilərində bir sıra infrastruktur layihələrinin** və əsaslı xərclərin (1291,1 milyon manat), həmçinin **ərzaq təhlükəsizliyinin təmin edilməsi** ilə əlaqədar əlavə xərclərin (193,0 milyon manat) maliyyələşdirilməsinə 2072,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq (2022-ci il 8 fevral tarixli 3135 nömrəli və 4 mart tarixli 3173 nömrəli) əmək pensiyalarına müəyyən edilmiş maddi yardımın (cəmi 306,4 milyon manat) dövlət sosial sığorta haqları üzrə cari ilin sonuna proqnozlaşdırılan 220,4 milyon manat əlavə gəlirlər və Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin maliyyə öhdəliklərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş transfertin 86,0 milyon manat artırılması, həmçinin sosial müavinətlərin verilməsi üçün əlavə 40,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Eyni zamanda, dövlət büdcəsinə yenidən baxılması ilə nəzərdə tutulmuş vəsaitlər dairəsində bəzi xərclər arasında 560,8 milyon manat məbləğində dəyişikliklər edilmişdir. Dəyişikliklərin 92,6 faizini **əməyin ödənişi**, **əmək pensiyaçılarına müəyyən edilmiş maddi yardım**, **əmək qabiliyyətinin müvvəqəti itirilməsinə görə verilən müavinətlər** və digər müavinətlər, 7,4 faizini isə **kommunal xidməti haqları** (elektrik enerjisi, qaz, su, kanalizasiya, rabitə, digər xidmətlər və xərclər) təşkil etmişdir.

Ölkədə yol infrastrukturlarının tikintisi, yenidənqurulması və onlara xidmətlə bağlı xərclərin tənzimlənməsi üçün “Avtomobil yolları” Məqsədli Büdcə Fondunda 2022-ci ilin əvvəllərinə formalaşmış qalıq vəsait və cari ildə gözlənilən əlavə daxilolma hesabına Fondun xərclərinin 350,0 milyon manat və ya 2,2 dəfə artırılaraq 650,0 milyon manata çatdırılması nəzərdə tutulur.

2022-ci il yenidən baxılmış dövlət büdcəsinin yerli gəlirləri 1030,2 milyon manat nəzərdə tutulur ki, bu da ilkin təsdiq edilmiş göstəriciyə nisbətən 82,6 milyon manat və ya 8,7 faiz, yerli xərcləri 1070,1 milyon manat və ya ilkin təsdiq edilmiş göstəriciyə nisbətən 85,1 milyon manat və ya 8,6 faiz çoxdur. Yerli xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımı 2,5 milyon manat artırılaraq 39,9 milyon manat təşkil edəcəkdir.

2022-ci ilin yenidən baxılmış dövlət büdcəsinin kəsiri 43,0 milyon manat artımla 3106,0 milyon manat məbləğində və ya ÜDM-nin 2,7 faizi həcmində proqnozlaşdırılır. Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait hesabına təmin ediləcəkdir.

Eyni zamanda, cari ilin sonuna **icmal büdcənin gəlirlərinin** 36660,9 milyon manat olacağı proqnozlaşdırılır ki, bu da ilkin proqnoz göstəricisinə nisbətən 8975,5 milyon manat və ya 32,4 faiz çoxdur. **İcmal büdcənin xərcləri** isə 35540,9 milyon manat proqnozlaşdırılır ki, bu da ilkin proqnoz göstəricisinə nisbətən 2626,5 milyon manat və ya 8,0 faiz çoxdur. İcmal büdcə 5229,0 milyon manat kəsirlə nəzərdə tutulsa da əlavə 6349,0 milyon manat gəlirləri hesabına 1120,0 milyon manat profisitlə proqnozlaşdırılır.

İcmal büdcənin tərkibinə daxil olan Azərbaycan Respublikası **Dövlət Neft Fondunun gəlirləri** cari ilin ilkin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 49,1 faiz çox və ya 15789,1 milyon manat nəzərdə tutulur. Azərbaycan Respublikası **Dövlət Neft Fondunun xərcləri** isə 11563,1 milyon manat təşkil edəcəkdir ki, bu da cari ilin ilkin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 9,3 faiz azdır.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında **Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin gəlirləri və xərcləri** bərabər olmaqla 5606,3 milyon manat təşkil edəcəkdir ki, bu da ilkin təsdiq edilmiş göstəriciyə nisbətən 5,6 faiz çoxdur.

**İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri** bərabər olmaqla 181,4 milyon manat təşkil edəcəkdir ki, bu da ilkin təsdiq edilmiş göstəriciyə nisbətən 0,6 faiz çoxdur.

**Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri və xərcləri** ilkin təsdiq edilmiş göstəriciyə nisbətən 4,9 faiz, dövlət büdcəsindən ayrılan dotasiya isə 6,0 faiz artırılmışdır. Artımdan sonra Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 606,1 milyon manat təşkil edəcəkdir. Artırılmış xərclərin əsasən əmək haqlarının və sosial müavinətlərin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur.

Yenilənmiş icmal büdcənin parametrləri 2022-ci ilin sonuna büdcə qaydası üzrə müəyyən edilmiş icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin 27,5 faiz səviyyəsindəki yuxarı həddi üstələmir. Dövlət borcu üzrə də büdcə qaydası ilə 2022-ci il üçün müəyyən edilmiş hədd gözlənilir.

**Qrafik 11.** İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti və ümumi dövlət borcunun ÜDM-ə nisbəti (faizlə)




## 5. Xam neftin qiymətinin dəyişməsinin icmal büdcəyə təsirlərinə dair həssaslıq analizi

Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin parametrləri bir sıra fərziyyələrə və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təqdim etdiyi ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf göstəricilərinə, o cümlədən xam neftin dünya bazarında götürülən qiymətinə əsaslanaraq proqnozlaşdırılır.

Bu baxımdan, hal-hazırda dünyada baş verən hadisələr və iqtisadi trendlər fonunda enerji daşıyıcıları və digər əmtəələrin qiymətlərinin volatilliyi və bununla bağlı digər ekzogen təsirlər icmal və dövlət büdcəsinin proqnozlaşdırılan gəlir və xərclərinin dəyişilməsini qaçınılmaz edir.

Neft qiymətlərinin volatilliyinə dövlət maliyyəsi və ortamüddətli dövrdə büdcə gəlirləri daha çox həssasdır. Bu baxımdan, riskin mitiqasiyası məqsədilə aşağıdakılar nəzərə tutulur:

- beynəlxalq maliyyə institutları və agentlikləri tərəfindən xam neftin dünya bazar qiymətinin 110 ABŞ dolları civarında proqnozlaşdırılmasına baxmayaraq, ortamüddətli dövr üzrə büdcə parametrlərinin hesablanması zamanı neftin bir barelinin orta illik qiymətinin həmin proqnozlardan aşağı, yəni 85 ABŞ dolları götürülməsi neftin qiyməti ilə bağlı risklərin qarşısının alınmasına xidmət edir;
- dövlət büdcəsinin tərtibi zamanı Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin xarici valyutada deyil, manat ifadəsində müəyyən olunması neftin qiyməti ilə bağlı risklərin dövlət büdcəsinə birbaşa təsirinin azalmasına xidmət edir. Beləliklə, dövlət büdcəsinin neft gəlirlərinin mühüm komponenti olan Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği neftin qiyməti, hasilat həcmi və valyuta məzənnəsinin dəyişkənliyi ilə bilavasitə bağlı olmadığından növbəti ilin dövlət büdcəsinin neft gəlirləri üzrə mədaxili bir növ sığortalanır.

Bununla belə, neft qiymətlərinin kəskin düşməsi və bir büdcə ilindən artıq müddət ərzində aşağı səviyyədə qalması Dövlət Neft Fondunun gəlirlərini azaltmaqla aktivlərinin daha sürətlə tükənməsinə gətirib çıxara bilər.

2022-ci ilin 6 aylıq faktiki daxilolmaları nəzərə alınmaqla ilin sonuna gözlənilən hesablamalara əsasən neftin qiymətinin hər 10 ABŞ dolları qədər aşağı düşməsi icmal büdcə gəlirlərinin illik orta hesabla təqribən 1,7 milyard manat azalmasına gətirib çıxarır. (qrafik 12 və 13).

**Qrafik 12. Cari ilin 6 aylıq faktiki daxilolmaları nəzərə alınmaqla icmal büdcənin gəlirlərinin müxtəlif neft qiyməti ssenarilərində dəyişməsi,** *milyard manatla*




**Qrafik 13. 2022-ci ilin 6 aylıq daxilolmaları nəzərə alınmaqla ilin sonuna gözlənilən Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin müxtəlif neft qiyməti şoklarına həssaslığı,** *milyard ABŞ dolları ilə*



## 6. Dövlət borcu ilə bağlı əsas parametrlər

01 iyul 2022-ci il tarixə birbaşa dövlət borcu 14.973,8 milyon manat və ya ÜDM-in 13,0 faizi, o cümlədən birbaşa xarici dövlət borcu 7.167,1 milyon ABŞ dolları və ya ÜDM-in 10,6 faizini, birbaşa daxili dövlət borcu 2.789,7 milyon manat və ya ÜDM-in 2,4 faizini təşkil edir.

01 iyul 2022-ci il tarixinə ümumi dövlət borcu 16.928,5 miyon manat və ya ÜDM-in 14,7 faizini, o cümlədən xarici dövlət borcu 7.882.3 milyon ABŞ dolları və ya ÜDM-in 11,7 faizini, daxili dövlət borcu isə 3.528,5 milyon manat və ya ÜDM-in 3,0 faizini təşkil etmişdir.

01 iyul 2022-ci il tarixinə xarici dövlət borcunun 7.167,1 milyon ABŞ dolları həcmində hissəsini və ya ÜDM-in 10,6 faizini birbaşa xarici dövlət borcu, 715,2 milyon ABŞ dolları həcmində hissəsini və ya ÜDM-in 1,1 faizini xarici borclara verilmiş dövlət zəmanəti üzrə şərti öhdəliklər təşkil etmişdir.

Xarici dövlət borcunun 45,2 faizi 10 ilədək, 49,0 faizi 10-20 il ərzində, 5,8 faizi isə 20 ildən artıq müddətə kreditorlara ödənilməlidir. Xarici dövlət borcu üzrə yeni cəlb olunan borc öhdəlikləri 10 ilədək müddətə müvafiq istinad dərəcəsi üstəgəl 0,65 faiz dərəcəsi ilə, 10-20 illik müddətə müvafiq istinad dərəcəsi üstəgəl 0,8 faiz dərəcəsi ilə, 20 ildən artıq müddətə isə müvafiq istinad dərəcəsi üstəgəl 0,9 faiz dərəcəsi ilə cəlb olunur.

01 iyul 2022-ci il tarixinə daxili dövlət borcunun 2.789,7 milyon manat həcmində hissəsinin və ya ÜDM-in 2,4 faizini birbaşa daxili dövlət borcu, 738,8 milyon manat həcmində hissəsini və ya ÜDM-in 0,6 faizini daxili borclara verilmiş dövlət zəmanəti üzrə şərti öhdəliklər təşkil etmişdir.

Daxili dövlət borcunun 79,1 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazları təşkil edir. 01 iyul 2022-ci il tarixinə dövriyyədə olan dövlət istiqrazlarının 0,8 faizi 1 illik, 73,1 faizi 2-3 illik, 23,6 faizi isə 5-7 illik istiqrazların payına düşür.

2022-ci il ərzində ümumilikdə 1736,0 milyon manat məbləğində borclanmalardan əldə olunacaq daxilolmalar hesabına dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi nəzərdə tutulur.

01 yanvar 2023-cü il tarixinə xarici dövlət borcu 8239,3 milyon ABŞ dolları, daxili dövlət borcu isə 3983,2 milyon manat olmaqla Azərbaycan Respublikasının ümumi dövlət borcunun 17.990,0 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır.

01 yanvar 2023-cü il tarixinə xarici dövlət borcunun 60,4 faizi 10 ilədək, 34,7 faizi 10-20 il ərzində, 4,9 faizi isə 20 ildən artıq müddətə kreditorlara ödənilməli olacaqdır. Birbaşa xarici dövlət borcu üzrə yeni cəlb olunacaq borc öhdəliklərinin 10 ilədək müddətə müvafiq istinad dərəcəsi üstəgəl 0,65 faiz dərəcəsi ilə, 10-20 illik müvafiq istinad dərəcəsi üstəgəl 0,8 faiz dərəcəsi ilə, 20 ildən artıq müddətə isə müvafiq istinad dərəcəsi üstəgəl 0,9 faiz dərəcəsi ilə cəlb olunacağı nəzərdə tutulur.

01 yanvar 2023-cü il tarixinə daxili dövlət borcunun 81,4 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazları təşkil edir. Ilin sonuna dövriyyədə olan dövlət istiqrazlarının 3,1 faizi 1 illik, 67,9 faizi 2-3 illik, 29,0 faizi isə 5-7 illik istiqrazların payına düşəcəkdir.

# ƏLAVƏLƏR

**1.** 2021-2022-ci illərin birinci yarısı üzrə Azərbaycan Respublikasının dövlət və icmal büdcələrinin icrasına dair məlumatlar

**2.** 2022-ci il üzrə dövlət və icmal büdcənin ilkin təsdiq olunmuş və yenidən baxılmış göstəriciləri

**3.** Azərbaycan Respublikasının 2022-ci il üzrə dövlət büdcəsi gəlirlərinin ilkin təsdiq olunmuş və yenidən baxılmış göstəriciləri (vergi, qeyri-vergi gəlirləri və tədiyyə növləri üzrə gəlirlər)

**4.** 2022-ci ilin dövlət büdcəsi xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlar üzrə yenidən baxılmış bölgüsü

**5.** Dövlət büdcəsində nəzərdə tutulmuş proqramlar və bu qəbildən olan tədbirlər barədə məlumat (yarımillik icra, ilkin təsdiq olunmuş və yenidən baxılmış göstəriciləri)

**6.** Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizminin tətbiq olunduğu pilot sektorların 2022-ci ilin ilkin təsdiq olunmuş və yenidən baxılmış büdcələrində nəzərdə tutulmuş xərclərin proqramlar üzrə bölgüsü